

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 93 (23.255)

*18 may 2019-cu il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Mayın 17-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyev deyib ki, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız var. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevskinin etimadnaməsini qəbul edib.



## E.S.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfa oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 may 2019-cu il*

## Turizmin inkişafı diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Turizm Departamenti aprel ayında fəaliyyətini qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində qurub. Bu dövrdə Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisasları üzrə III kurs tələbələrinin 15 aprel 2019-cu il tarixdən mehmanxanalarda istehsalat təcrübəsi keçmələri təşkil olunub.*

"İdeyadan başlanğıca" devizi altında layihələrin qəbul edilməsi məqsədilə Turizm Departamentində ekspert qrupu yaradılıb. Aprelin 30-da Naxçıvan Turizm İnformasiya Mərkəzində "Turizm sahəsində startapların hazırlanması" mövzusunda Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində Turizm və otelçilik ixtisasları üzrə təhsil alan tələbələrlə görüş keçirilib.

Turizm Departamentinin əməkdaşları tərəfindən Şahbuz rayonunun Ağbulaq və Kükü kəndlərində hostel kimi istifadə ediləcək evlər müəyyənləşdirilərək təqdimatı keçirilib. Qanunvericiliyə uyğun olaraq sertifikatlar, eləcə də VÖEN-lər hazırlanıb və ev sahiblərinə təqdim olunub. Həmçinin Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılıb, həmin evlər haqqında ümumi məlumat və fotoşəkillər sayta yerləşdirilib. Bu dövrdə Darıdağ Arsenli Su Müalicəxanasının və Naxçıvan şəhəri üzrə turist xəritəsinin hazırlanması üzrə iş aparılıb.

Mərkəz təbliğat sahəsində fəaliyyətini gücləndirib, müraciət edən turistlərin sorğuları aidiyyəti üzrə cavablandırılıb. Mərkəzin sosial şəbəkələrdəki səhifələrinə muxtar respublikanın tanıdılması məqsədilə məlumatlar daxil olub. "Facebook" sosial şəbəkəsinə 43 məlumat daxil edilib, 9366 baxış sayı qeydə alınıb. Həmçinin təbliğat xarakterli məlumatlar "Twitter" və "Google+" səhifələrində də yayımlanıb. Naxçıvan Muxtar Respublikasının turizm potensialı, Naxçıvanın türk-islam mədəniyyəti abidələri, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Kətə" festivalı haqqında məlumatlar Azərbaycanın digər bölgələrində yerləşən Turizm İnformasiya mərkəzlərinə, Azərbaycanda və 20-yə yaxın xarici ölkədə fəaliyyət göstərən turoperatorlara, eləcə də mehmanxanaların elektron poçt ünvanlarına göndərilib.

Yaradılmış müasir infrastrukturun müsbət nəticəsi olaraq 2019-cu ilin yanvar-mart ayları ərzində Naxçıvan Muxtar Respublikasına ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 99 min 644 turist gəlib.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## Təsərrüfat sahibləri ilə maarifləndirici görüşlər keçirilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi aprel ayında muxtar respublikanın şəhər və rayonlarında ayrı-ayrı ailə təsərrüfatı üzvləri, torpaq mülkiyyətçiləri və sahibkarlarla tarla seminar müşavirələri keçirmiş, yeni ailə təsərrüfatlarının yaradılması diqqətdə saxlanılmışdır.*

Yaz tarla işlərinə başlanılması ilə əlaqədar əkin atlaslarından istifadə edilməsi, növbəli əkin sisteminə əməl etməklə sahələrin hazırlanması ilə bağlı tədbirlər, Şərur, Babək, Culfa, Kəngərli rayonlarında kartofçuluq, meyvətərəvəz və bostançılıqla məşğul olan torpaq sahibkarlarına tövsiyələr verilmişdir. "Araz" Elm-İstehsalat Birliyinin meyvə bağında və digər əkin sahəsində Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüş təşkil olunmuş, meyvəçiliyin və üzümçülüyün inkişaf etdirilməsində aqrotexniki tədbirlərin keyfiyyətlə aparılmasının və növbəli əkinlərin tətbiqinin əhəmiyyəti barədə tələbələr qarşısında maarifləndirici çıxışlar edilmişdir.

Ötən ay 136 torpaq sahibkarının müraciəti əsasında meyvə bağlarında quru budama, həmçinin zərərverici və xəstəliklərə qarşı mübarizə tədbirlərinin aparılmasına, 21 hektar yeni salınmış üzümlük, 4 hektar istixana təsərrüfatı, 36 hektar bostan, 48 hektar qarğıdalı, 13 hektar meyvə-tərəvəz sahələrində kompleks becərmə tədbirlərinin aparılmasına, eləcə də 3000 hektar taxıl, 1336 hektar yonca sahəsində kimyəvi mübarizə tədbirlərinin həyata keçirilməsinə dair hüquqi və fiziki şəxslərə tövsiyələr verilmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar tədbirlər görülmüş, iri arıçılıq təsərrüfatları sahibkarlarının iştirakı ilə müşavirələr keçirilmişdir. Həmçinin mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində süni mayalandırma tədbirləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Su təminatı yaxşılaşdırılır

***Muxtar respublikada suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqətdə saxlanılır. Hazırda su anbarlarında 235 milyon kubmetr su ehtiyatı vardır.***



Aprel ayında su istifadəçilərinə 44 milyon kubmetr su verilmiş, təkrar suvarma da daxil olmaqla, 37 min hektar torpaq sahəsi suvarılmışdır. Bu dövrdə 43 kilometr beton və torpaq kanal, 29 kilometr ara arxlar, 4 kilometr kollektor lildən təmizlənmiş, 11 kilometr yeni suvarma boru xətti çəkilmiş, 5 kilometr suvarma boru xətti və 6 kilometr içməli su xətti təmir edilmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini daşqın və sel sularından qorumaq məqsədilə Naxçıvançay, Cəhriçay vadilərində 710 metr istiqamətləndirici bənd tikilmişdir.

Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 76 hektar, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 300 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılmış, Yurdçu kəndi ərazisində 2520 metr, Türkeş kəndi ərazisində isə 3240 metr yeni suvarma xətti quraşdırılmışdır. Həmçinin Şərur və Babək rayonlarında 72 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Ötən ay muxtar respublikada 69 subartezian quyusu təmir olunmuş, 5 kəhrizdə bərpa işləri davam etdirilmişdir.

Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 9525 metr yeni xətt çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Vənənd kəndi müasir yaşayış məntəqəsinə çevrilməkdədir







Cari ilin əvvəlində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları tərəfindən Vənənd kəndində kompleks quruculuq işlərinə başlanılıb. Qeyd edək ki, kənd tam orta məktəbinin binası ötən əsrin yetmişinci illərində inşa edildiyindən burada dərs prosesini müasir tələblər səviyyəsində qurmaq mümkün olmurdu. İnşaatçılar ilk olaraq bu obyektin yenidən qurulması işlərinə başlayıblar. Qısa zaman ərzində binanın qapı və pəncərələri, döşəməsi, elektrik və rabitə xətləri, çardağı sökülərək yenilənib. Bina daxilindəki arakəsmələr işlənib, binadaxili divarlara ilkin suvaq çəkilib. Binanın fasadı da suvanıb. Hazırda istilik sistemi və fasad üzərinə mərmər plitələr çəkilməsi işləri həyata keçirilir.

Məktəb ərazisinin bir tərəfində Vənənd Kənd Uşaq Musiqi Məktəbi üçün bina inşa edilir. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq bu obyektdə inşaatçılar qısa zaman ərzində zirzəminin dəmir-beton işlərini yerinə yetiriblər.

Yaşayış məntəqəsində inşa olunan digər tikili isə kənd mərkəzinin binasıdır. Hazırda ikinci mərtəbənin hörgü işləri aparılan bina istifadəyə verildikdən sonra burada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının kənd ilk ərazi təşkilatı, poçt, mədəniyyət evi, kitabxana, rabitə evi, baytarlıq və polis məntəqələri üçün də hər cür şərait yaradılacaq.

Vənənd kəndində inşa edilən həkim ambulatoriyasında hörgü işləri tamamlanıb. İnşaatçılar binanın çardağının qurulması işləri ilə məşğuldurlar.

Əhaliyə nümunəvi ticarət və məişət xidməti göstərilməsi üçün də bu yaşayış məntəqəsində müasirtipli xidmət mərkəzi inşa olunacaq.

**Abbas SEYİD**

"Ailə təsərrüfatları ili" – 2019

# Arıçılıq gəlirli və xeyirli təsərrüfat sahəsidir

## Tütün balı isə öz müalicəvi əhəmiyyəti ilə seçilir

*Muxtar respublikamızdakı ailə təsərrüfatları bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hələ iki il bundan əvvəl – beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Ali Məclisin Sədri bu sahənin inkişaf etdirilməsi ilə bağlı demişdir:* ***"... Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemini həll edir, əhali gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Ona görə də ailə təsərrüfatlarının yaradılmasına üstünlük verilməlidir".*** *Ötən dövrdə bu sahənin inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər əhali tərəfindən ailə təsərrüfatlarına olan marağı artırmış, muxtar respublikada yüzlərlə yeni ailə təsərrüfatları yaradılmışdır. 2018-ci il dekabrın 27-də isə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu il muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunmuşdur.*



Qeyd etmək lazımdır ki, hazırda muxtar respublika iqtisadiyyatında kənd təsərrüfatı sahəsi mühüm yer tutduğundan yaradılan ailə təsərrüfatlarının da böyük əksəriyyəti aqrar yönümlüdür. Dövlət tərəfindən güzəştli şərtlərlə kreditlərin verilməsi, subsidiyaların ödənilməsi, kənd təsərrüfatı texnikaları və avadanlıqlarının lizinq yolu ilə əhaliyə çatdırılması, həmçinin istehsal olunan məhsulların satışı üçün əlverişli şəraitin yaradılması və keçirilən festivallar muxtar respublikada ailə təsərrüfatlarının inkişafına yeni imkanlar açıb. Görülən işlərin nəticəsidir ki, hazırda muxtar respublikada 800-dən çox ailə təsərrüfatı fəaliyyət göstərir və qarşıdakı dövrdə onların sayının artacağı şübhəsizdir.

Vurğulayaq ki, ailə təsərrüfatları içərisində daha çox diqqətçəkən fəaliyyət sahələrindən biri də arıçılıqdır. Naxçıvanda arıçılığın bir sahə kimi inkişaf etdirilməsi uzaq keçmişə dayanır. Muxtar respublika ərazisinin təbii şəraiti arıçılıq üçün əlverişli olduğuna görə bütün bölgələrdə bu sahə ilə məşğul olanlar olub və indi də var. Son illərdə isə arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaradıb. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbovun 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər bu sahə ilə məşğul olan ailələrin və arı ailələrinin sayını artırıb. Hər il ənənəvi olaraq Naxçıvan şəhərində keçirilən "Arıçılıq məhsulları – bal festivalı" və iştirakçılar arasında müxtəlif nominasiyaların təşkili isə təsərrüfat sahiblərini bu işə daha da həvəsləndirib. Ötən il "Arıçılıq məhsulları – bal festivalı"nda keçirilən müsabiqədə III yerin qalibi, Kəngərli rayonunun Təzəkənd sakini Habil Abbasov isə həm də fərqli bal istehsalçısı kimi tanınır. Belə ki, bu zəhmətkeş ailə təsərrüfatı sahibi təsərrüfatında tütün balı istehsal edir.

Habil Abbasov bizimlə söhbətində bildirdi ki, arıçılığı onlar dədə-baba peşəsi hesab edirlər. Vaxtilə atası Nemət Abbasov bu işlə məşğul olub. Müsahibimiz isə 1992-ci ildən bu ailə ənənəsini davam etdirir. Onun dediklərindən:

– Təzəkənd, Xıncab, Çalxanqala yaşayış məntəqələri keçmişdən arıçılığın inkişafı üçün əlverişli ərazilərdən olub. Bölgənin coğrafi iqlim şəraiti bu sahənin inkişafında böyük rol oynayıb. Buranın balı da təbii xüsusiyyətlərdən asılı olaraq tamı ilə seçilib. Sovet dövründə də arıçılıq bölgənin kənd təsərrüfatında müəyyən rol oynayıb.

Müsahibimin dediklərinə görə, ötən əsrin 70-ci illərində muxtar respublikada ən böyük arıçılıq təsərrüfatı Çalxanqala kəndində yerləşən Dzerjinski adına sovxozun tərkibində yaradılıb. O zamanlar Təzəkənd, Xıncab, Çalxanqala kəndlərinin sovetliyi də bu kənddə yerləşib. Həmin dövrdə, təbii ki, dövlətin nəzarətində olan bu təsərrüfatda qonşu kəndlərin sakinlərindən də çalışanlar olub. Hətta aylıq maaşların müqabilində işçilərə müxtəlif kənd təsərrüfatı məhsullarının paylandığı həmin dövrdə məvacib müəyyən ölçüdə balla da ödənilib. Ancaq ötən əsrin 80-ci illərində həmin təsərrüfatın Nehrəm kəndinə köçürülməsi nəticəsində bölgədə arıçılıq bir təsərrüfat sahəsi kimi tənəzzülə uğrayıb. Hətta deyilənlərə görə, Nehrəmə aparılan arı ailələri qısa müddətdə məhv olub. Müstəqilliyimizin ilk illərində isə arıçılıqda təcrübəsi olan bəzi kənd sakinləri yenidən bu sahəyə maraq göstəriblər.

Hazırda ailə təsərrüfatı sahibi Habil Abbasov da, qeyd etdiyimiz kimi, 1992-ci ildən arıçılıqla məşğul olmağa başlayıb. Ancaq ilk illərdə böyük çətinliklərlə qarşılaşıb. Arıçılıq üçün nəzərdə tutulan bir sıra dərman preparatları və avadanlıqların əldə olunmasında problemlərlə rastlaşıb. Ancaq indi dövlətin bu sahənin inkişaf etdirilməsi üçün yaratdığı şəraitdən bəhrələnərək təsərrüfatını inkişaf etdirir.

Habil Abbasovdan tütün balının necə bir bal olduğunu soruşduq. Dedi ki, tütün balı arıların tütün bitkisinin çiçəyindən toplayaraq hazırladığı baldır. Bu balın qoxusu da fərqlidir. Hazırlanan bal sırf tütün çiçəyindən hasil olmuşsa, bu bal qara rəngdə olur. Ancaq məsələ burasındadır ki, tütün bütün bitkilərdən gec – sentyabr ayında çiçək açır. Həmin müddətə qədər arılar digər bitkilərin çiçəyindən istifadə edirlər. Buna görə də bizim istehsal etdiyimiz bal digər çiçəklərdən alınmış bal ilə qarışmış şəkildə olur. Lakin bununla belə, balın tərkibində tütünün qoxusunu və fərqli dadını hiss etmək mümkündür. Bu, eyni zamanda balın müalicəvi əhəmiyyətini də artırır. Tütün balı ürək-damar xəstəliklərinin əsl dərmanıdır.

Həmsöhbətim onu da vurğulayır ki, rayonumuzda tütünçülüyün inkişafına yeni başlanılıb. Yəni bu gün arı ailələri üçün tütün sahələri hələlik azlıq təşkil edir. Ancaq bu sahələr artırılarsa, o zaman tütün balının da daha çox istehsal etmək imkanımız olacaq.

Öyrəndik ki, hazırda Habil Abbasov təsərrüfatında 35 arı ailəsi saxlayır. Ötən il 250 kiloqram bal istehsal edib. 2018-ci ildə Naxçıvan şəhərində keçirilmiş "Arıçılıq məhsulları – bal festivalı"na isə 100 kiloqram bal, 10 kiloqram mum çıxarıb. Çıxardığı məhsullara istehlakçılar tərəfindən böyük maraq göstərilib. Bildirdi ki, bu cür festivalların keçirilməsi biz təsərrüfatçıların köməyinə çatır, istehsal etdiyimiz məhsulların bazarı üçün geniş imkanlar açır. Yaradılmış şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk və çalışacağıq ki, gələcəkdə məhsul istehsalını daha da artıraq.

*Bəli, arıçılıq iqtisadi cəhətdən gəlirli, qida və müalicəvi əhəmiyyəti baxımından ən xeyirli təsərrüfat sahəsidir. Belə ki, arıçılıq təsərrüfatının yaradılmasına lazım olan xərc az, qoyulmuş xərcin qaytarılma müddəti qısa, iş şəraiti ekoloji-sağlamlıq cəhətdən əlverişlidir. Buna görə də hazırda muxtar respublikamızda arıçılığa böyük maraq var. İnanırıq ki, dövlətin bu sahəyə davamlı dəstəyi gələcəkdə arıçılıq üzrə daha çox ailə təsərrüfatlarının yaradılmasına, beləliklə, iqtisadiyyatımız üçün daha rəqabətli məhsul istehsalına imkan verəcəkdir.*

✍ **Səbuhi HƏSƏNOV**

# Planaalma işləri başa çatdırılıb

***"Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanının icrası ilə əlaqədar olaraq Şərur rayonunda torpaq sahələrinin konturlarının çöl geodeziya-ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi başa çatdırılıb.***

2018-ci ilin aprel ayından başlanılan planaalma işləri Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun mütəxəssisləri tərəfindən müasir geodeziya-ölçü avadanlıqlarından istifadə edilməklə yüksək dəqiqlik və keyfiyyətlə yerinə yetirilib.

Aparılmış planaalma işləri nəticəsində 34 mindən artıq daşınmaz əmlak obyektinin elektron kadastr məlumatları komitənin informasiya bazasına daxil edilib, yaşayış məntəqələrinin yeni yerquruluşu xəritələri hazırlanıb.



Rayonun bütün bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanıb, kadastr xəritələrinin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılıb və uçotu aparılıb. Şərur rayonunun 87 min 226 hektar ərazisinin 42 min 52 hektarı dövlət, 30 min 954 hektarı bələdiyyə, 14 min 220 hektarı isə xüsusi mülkiyyətdə olan torpaq sahələridir.

Hazırda planaalma işləri başa çatmış yaşayış məntəqələrinin ərazilərində mülkiyyət növündən və təyinatından asılı olmayaraq, bütün torpaq sahələrinə dair göstəricilər baza məlumatları ilə müqayisə olunur, uyğunsuzluqların aradan qaldırılması istiqamətində işlər davam etdirilir.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# Bağa baxarsan bağ olar

*Hələ orta əsrlərdə səyyahların "meyvə cənnəti" adlandırdıqları Naxçıvanda hər mövsümün adı ilə deyilən meyvələrinin içərisində biri də var ki, yaz gələn kimi bütün ağaclardan qabaq çiçək açır, məhsul verir. Adla deyilən Naxçıvan göycəsi mayın ortalarından iyulun axırlarına kimi yeşiklərə, zənbillərə yığılıb Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı, başqa ölkələrə də göndərilir və göycə təsərrüfatı ilə məşğul olanların qazanc mənbəyinə çevrilir.*



Şərur rayon sakini Orxan Həsənov artıq 10 ilə yaxındır ki, rayonun Muğancıq-Mehrab kəndində 0,5 hektar torpaq sahəsində 400 göycə ağacına qulluq edir. Onu da deyim ki, gənc olmasına baxmayaraq, torpaqdan dördəlli yapışan müsahibim Naxçıvan Dövlət Gömrük Komitəsində kompüter operatorudur.

O dedi ki, ağaclar da uşaq kimidir, qayğısına qalmasan, əzizləməsən yaxşı bar götürə bilməzsən. İnsan zəhmətlə, sevgi ilə bir işdən yapışarsa, onu yarıda bilər, çünki zəhmət bəhrəsiz qalmır. Əbəs yerə demirlər ki, ruzisini torpaqdan alandan dərd-bəla uzaq qaçar. Bu neçə ildə şahid oldum ki, qayğı və zəhmət bir-birini tamamlayanda həyatda çox şeyə nail olmaq mümkündür. Təki işə ürəkdən bağlanasan, hər hansı çətinlikdən qorxmayasan.

Orxan illərdir, göycə yetişdirməklə məşğul olduğuna görə bu haqda ətraflı məlumat verir:

– Göycə Naxçıvanda ən tez yetişən meyvədir. Onun adi alçadan fərqli cəhəti tam yetişənə qədər yaşıl rəngini qoruyub saxlamasıdır. Adətən, alça tam yetişəndə qızarır. Ancaq göycə belə deyil. Digər tərəfdən, bu meyvə kal vaxtı göy-göy yeyildiyi üçün elə "göycə" adlanır. Göycə ancaq Naxçıvanda yetişir. Bu meyvənin digər rayonlarımızda yetişməsinə az-az rast gəlmək olar. Olsa belə, meyvənin dadı tamamilə dəyişir və adi alçaya çevrilir. Yazda ağacların ən tez oyananı göycədir, o, yarpaq açmamışdan əvvəl çiçəkləyir. Meyvələri mayın ortalarında yeyilməyə başlanır. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyunun axırı, iyulun ortalarında tam yetişir. Müsahibim onu da deyir ki, çoxillik ağaclar, adətən, 10-25 il normal məhsul verir. Hər bir ağacdan ildə, təqribən, 50 kiloqrama qədər məhsul toplayırıq. Bu meyvə ağacı şaxtaya dözümlü olduğu üçün soyuq iqlimə malik olan muxtar respublikada yaxşı bar verir. Göycə ağacı çınqıllı, daşlı və həddindən artıq bərk gilli torpaqları sevmir, – deyən müsahibim onu da bildirir ki, yaxşı məhsul verməsi üçün göycə qüvvətli və yumşaq torpaqlara əkilməlidir. Əks halda onun məhsuldarlığı az olar. Göycəni 5-6 dəfə suvarmaq lazımdır ki, meyvələri keyfiyyətli olsun. Meyvələr yetişənə qədər ağacların ziyanvericilərinə qarşı tədbirlər görmək vacibdir. Meyvələri avqust ayının əvvəllərində tam yetişkənliyə çatanda daha çox sulanır, şirinləşir. Yığılmamış yetkin meyvələrdən isə kompot, cem, lavaşa hazırlanır. Göycənin yaxşı qurudulmuş yetkin meyvəsi öz dadı ilə seçilir. Qışda xüsusi yeməklərin hazırlanmasında, kulinariya sahəsində qiymətli məhsul kimi göycə qurusundan geniş istifadə olunur.

Biz təsərrüfatda olan zaman Orxan bağda ağaclara qulluq edirdi. Ağacları ziyanvericilərdən qorumaq üçün dərmanlama işi aparırdı. O deyir ki, işdən gələn kimi birinci bu bağa baş çəkirəm. Bağa qulluq edir, ağacların qayğısına qalıram ki, yaxşı məhsul götürə biləm. Ataların "Bağa baxarsan bağ olar" misalına həmişə əməl edir, ruzini Tanrıdan diləyirəm. Axı Tanrı: "Səndən hərəkət, məndən bərəkət deyib..."

✍ **Ramiyyə ƏKBƏROVA**

# Təbiətimiz zənginləşir

Naxçıvan Muxtar Respublikası ərazisində ekoloji tarazlığın qorunması sahəsində məqsədyönlü tədbirlər görülür, yeni meşə massivləri, meyvə bağları əkilir.



Aprel ayında bu məqsədlə "Duzdağ" otelinə gedən yolun kənarında 2 hektar sahədə badam, 1 hektar sahədə üzüm bağı əkilib, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında, Uzunoba Su Anbarı ətrafındakı ərazilərdə 3 hektar sahədə əkin-bərpa işləri görülüb, 4500 meyvə tingi və 3600 üzüm kolu əkilib. Təpə, yamac və yarğanlarda toxumla əkinin səmərəliliyi nəzərə alınaraq Ağbulaq kəndi ərazisindəki orta dağlıq yerlərdə, Uzunoba yaxınlığındakı təpəliklərdə və xüsusi mühafizə olunan təbiət ərazilərində 20 hektar sahədə 155 kiloqram toxum əkilib.

Yaşıllaşdırma tədbirlərinin aparılmasında tingə olan tələbatın təmin edilməsi, ilboyu bərpa işlərinin davam etdirilməsi məqsədilə 1,5 hektar sahədə toxum səpilib. 5500 dibçəkdə ting salınıb, aidiyyəti idarə və müəssisələrə 30 mindən çox ting verilib. Köməklik məqsədilə nazirlik tərəfindən iki ailə təsərrüfatına 2200 ərik, alma, tut, badam və meşə tingləri verilib.

Ötən ay fauna ehtiyatlarının qorunması, qanunsuz ov edilməsi hallarının qarşısının alınması məqsədilə 7 reyd-yoxlama keçirilib, 1 ətraf mühitin mühafizəsi qanunvericiliyinin tələblərinin pozulması halı qeydə alınıb və qanunauyğun tədbirlər görülüb. 20-dən çox yaşayış məntəqəsində, təbiət ərazilərində kompleks monitorinqlər aparılıb.

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

## Amerikalı turistlər Naxçıvandan yazır

***4-7 may tarixlərdə Amerika Birləşmiş Ştatlarının vətəndaşları Lillie Echevarria və Kazi Vaqar Ahmed Naxçıvan Muxtar Respublikasında səfərdə olublar. Onlar internet saytlarında və sosial şəbəkələrdə Naxçıvan səfərlərindən yazıblar.***

Möminə xatın türbəsi və Əshabi-Kəhf haqqında fikirlərini paylaşan Lillie Echevarria qeyd edib ki: “Möminə xatın türbəsi Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz tərəfindən həyat yoldaşı Möminə xatının məzarı üstündə ucaldılıb. Abidənin üzərində “Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar” sözləri yazılıb. Əshabi-Kəhf ziyarətgahı isə Naxçıvan şəhərinin şərq hissəsində yerləşən təbii mağaradır. Qədim dövrlərdən bəri Əshabi-Kəhf müqəddəs ziyarətgah kimi qəbul edilib. Bu yer təkcə Naxçıvan Muxtar Respublikasında deyil, Azərbaycanın digər rayonları və Yaxın Şərqdə də müqəddəs yer hesab olunur. Hər il on minlərlə insan bu ziyarətgaha səfər edir”.

Kazi Vaqar Ahmed isə Naxçıvan barədə daha geniş bəhs edir: “Naxçıvan Azərbaycanın ən mühüm tarixi ərazilərindəndir. Buranı mütləq görməlisiniz. Muxtar respublika İran, Türkiyə və Ermənistanla sərhəddir. Qədim abidələri, zirvələri qarla örtülü dağları, bütün İslam və xristian dünyası üçün mühüm əhəmiyyətli dini əraziləri ilə məşhurdur. Bakıdan Naxçıvana Azərbaycan Hava Yollarının təyyarələri ilə gündəlik 4 uçuş həyata keçirilir. Uçuşların müddəti 1 saatdır. Naxçıvan şəhərində gözəl “Təbriz” oteli fəaliyyət göstərir. Bu otel turistlərə bütün imkanları olan təmiz otaqlar, sürətli internet və səhər yeməyi təklif edir”.

Daha sonra o yazır: “Möminə xatın türbəsi XII əsrdə inşa edilib. Dünyada üzərində “Yasin” surəsi yazılmış yeganə tarixi abidədir. Nuh Peyğəmbərin türbəsi də Naxçıvandadır. Yerli tədqiqatçılar araşdırmalar aparmışlar. Nəticədə, dəniz balıqlarının fosilləri, dəniz ilbiz qabığı, həmçinin Nuh Peyğəmbərin dövründə dəniz səviyyəsindən 3700 metr yüksəklikdə insan yaşayış məskənləri tapmışlar. Türbə sadə bir quruluşa malikdir. Eksponatlar nümayiş etdirilən otaq və məzarın ehtimal olunduğu yeraltı hissədən ibarətdir.

Digər görməli yer isə “İncil” kitabında da adıçəkilən mağara sakinləri ilə əlaqəsi olan Əshabi-Kəhfdir. Bu, elə bir yerdir ki, ziyarətgahı şəkil və video ilə təsvir etmək çətindir, insanın özünün görməsi lazımdır. Bərpa olunmuş pilləkənlərlə qalxaraq dağın içərisindəki mağaraya çatmaq olur. Müqəddəs “Qurani-Kərim”də bəhs olunan hadisəni Əshabi-Kəhf mağarasının içərisinə girdikdən sonra hiss etmək olur. Mağaranın girişində bulaq var. Ziyarətgahın aşağı hissəsində hədiyyə mağazası və çay içmək üçün xüsusi yerlər vardır”.

ABŞ vətəndaşının son qeydləri Duzdağ Fizioterapiya Mərkəzi barədədir: “Naxçıvanda astma və tənəffüs yolları xəstəliklərinin duz şaxtasında müalicə edildiyinin şahidi oldum. Şaxtanın içərisində xəstəxana var və insanlar orada müalicə olunur. Xəstələr şaxtada 12 gün yatır. Müalicə olunduqdan sonra onlar özlərini çox yaxşı hiss edirlər. Pakistanın “Xevra” adlanan böyük duz şaxtası var. Nə üçün biz eyni müalicə mərkəzini orada yaratmırıq? Məsləhət görərdim ki, tədqiqatlar aparılsın, Xevra şaxtaları da Naxçıvandakı kimi müalicə və turizm məqsədilə istifadə edilsin”.

## Məzun günü keçirilib



*Naxçıvan Dövlət Universitetində məzun gününə həsr olunmuş təntənəli mərasim keçirilib.*

Tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov məzun adı qazanan magistr və tələbələri, onların üzərində böyük əməyi olan müəllim və valideynləri təbrik edib, məzunlara gələcək fəaliyyətlərində ali təhsil aldıqları universitetin adını daim uca tutmağı və müstəqil ölkəmizin tərəqqisinə layiqli töhfələr verməyi arzulayıb. Rektor Azərbaycanda elm və təhsilin inkişafından, muxtar respublikada kadr potensialının gücləndirilməsinə göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, bir çox beynəlxalq layihələrdə uğurla iştirak edən, əməkdaşlıq əlaqələri ildən-ilə güclənən universitetin timsalında müasir ali təhsil müəssisəsi modeli yaradılıb. Rektor universitetin 2018-2019-cu tədris ilindəki nailiyyətlərindən bəhs edərək bildirib ki, bu il bakalavr üzrə 1435, magistratura üzrə isə 149 gənc öz ali təhsilini başa vurur.

Sonra məzun adını qazanmış bir qrup tələbə çıxış edib mükəmməl ali təhsil almalarında mühüm rolu olan pedaqoji kollektivə minnətdarlıqlarını çatdırıb. Çıxışçılar bütün məzunları əlamətdar gün münasibətilə təbrik ediblər.

Tələbə Teatr Studiyasının yallı və rəqs qrupunun ifaları tamaşaçılarda xoş əhval-ruhiyyə yaradıb. Muxtar respublikada qonaq olan Azərbaycan Respublikasının Əməkdar artisti İlqar Muradov da məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb.

İncəsənət fakültəsinin Xalq çalğı alətləri kafedrasının “Buta” instrumental ansamblının konsert proqramı, bir-birindən maraqlı mahnı və rəqslər tədbiri daha da rəngarəng edib.

Sonda məzun tələbələrlə xatirə şəkli çəkdirilib.

**Səadət ƏLİYEVA**

## Beynəlxalq Muzeylər Günü qeyd edilib





*Mayın 17-də Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində Beynəlxalq Muzeylər Günü ilə bağlı tədbir keçirilib.*

Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova bildirib ki, muxtar respublikamızda muzey işinin özünəməxsus inkişaf tarixi vardır. XIX əsrin sonlarında böyük yazıçı və dramaturqumuz Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət edib və Azərbaycanda ilk dəfə olaraq bu kənd məktəbində Naxçıvanın tarixinə dair maddi mədəniyyət nümunələrinin toplandığı muzey yaradıb. Naxçıvanda ilk Tarix-Etnoqrafiya Muzeyi isə 1924-cü il 30 oktyabrda təşkil edilib.

Vurğulanıb ki, ölkəmizdə muzey işinin, muzeyşünaslığın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-80-ci illərində Azərbaycanda yeni muzeylərin yaradılması, fəaliyyəti üçün mühüm tədbirlər həyata keçirib. Həmin dövrdə Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyləri yaradılıb. Məhz bu dövrdə Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında tarix-diyarşünaslıq muzeylərinin əsası qoyulub. 1969-cu ilədək Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərib ki, bunlardan da yalnız biri xatirə muzeyi kimi nəzərdə tutulub. Ümummilli liderimizin hakimiyyəti illərində isə ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılıb.

Qeyd olunub ki, müstəqillik illərində də ulu öndərin rəhbərliyi ilə muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoyub. 2000-ci ildə qəbul edilən “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir.

Çıxışda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə atılan uğurlu addımlardan, mühüm işlərdən bəhs olunub.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində qazanılan nailiyyətlərdən danışan nazir vurğulayıb ki, 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey var idisə, hazırda muxtar respublikada 1 rəsm qalereyası və 29 müxtəlif profilli muzey fəaliyyət göstərir. Bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox eksponat toplanıb. Muzey fondlarının zənginləşdirilməsi daim diqqət mərkəzində saxlanılır, ötən il ərzində muxtar respublikanın muzeylərinə 1564 yeni eksponat daxil olub. Bu ilin 4 ayında isə muzeylərimiz 571 yeni eksponatla zənginləşdirilib. Nazir belə mədəniyyət müəssisələrinin də inkişafına göstərilən diqqət və qayğıya görə muzey əməkdaşları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimovun “Tariximizin saxlanc yeri – muzeylər”, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Vilayət Bağırovun “Muzeylərin gənc nəslin təlim-tərbiyəsində rolu”, M.T.Sidqinin ev-muzeyinin direktoru Şəbnəm Rüstəmlinin “Naxçıvan muzeylər diyarıdır” mövzularında çıxışları dinlənilib.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının qızlardan ibarət rəqs qrupu, Ordubad Rayon Mədəniyyət Sarayının “Dübəndi” instrumental ansamblının ifaçıları, yallı kollektivi maraqlı proqramla çıxış ediblər.

Sonda Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasına baxış olub.

**Abbas SEYİD**

## Elmi konfrans

*“Naxçıvan” Universitetində Azərbaycan dili və ədəbiyyat kafedrasının təşkilatçılığı ilə “Görkəmli pedaqoq, musiqişünas və rəssam Ərtoğrol Cavid – 100” adlı elmi konfrans keçirilib.*

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev bildirib ki, Ərtoğrol Cavid musiqişünas, rəssam və tədqiqatçı kimi Azərbaycan mədəniyyətində zəngin irs yaradıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 aprel tarixli Sərəncamı ilə Ərtoğrol Cavidin 100 illik yubileyinin qeyd olunması ədəbi-mədəni irsimizə verilən yüksək qiymətdir.

Qeyd olunub ki, Ərtoğrol Cavid qısa ömür sürsə də, çoxşaxəli və zəngin fəaliyyəti ilə tanınıb. O, Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəyovun sinfində davam etdirib, eyni zamanda konservatoriyanın nəzdindəki musiqi məktəbində dərs deyib, gənc tədqiqatçı kimi musiqi folkloru nümunələrinin toplanması və tədqiqində iştirak edib. Musiqi Elmi-Tədqiqat Kabinetində çalışdığı vaxtlarda Azərbaycanın ayrı-ayrı regionlarından toplanmış müxtəlif janrlı folklor nümunələri, eləcə də şifahi xalq ədəbiyyatına dair bəzi tədqiqat əsərləri barədə dəyərli elmi rəylər də yazıb.

Konfransda Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Aypara Behbudovanın “Ədəbi-bədii irsi zəngin və bənzərsiz şəxsiyyət”, Pedaqoji fakültənin dekanı, dosent Nurlana Əliyevanın “Ərtoğrol Cavid – yarımçıq qalmış ömrün notları” mövzularında çıxışları dinlənilib.

Sonda görkəmli pedaqoq, musiqişünas, rəssam Ərtoğrol Cavidin həyat və yaradıcılığı haqqında slayd nümayiş olunub.

**Seyfur HACIMURADOV**

## İnteraktiv dərsi muxtar respublikanın 218 ümumtəhsil məktəbinin şagirdləri izləyib

***AMEA Naxçıvan Bölməsində təşkil olunan “Həyatını elmə həsr edən görkəmli alim: Məmməd Cəfər Cəfərov” mövzusunda interaktiv dərsi muxtar respublikanın 218 ümumtəhsil məktəbinin şagirdləri izləyib.***





*Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb*

İnteraktiv dərsi bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova aparıb.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin “Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında” 2019-cu il 15 aprel tarixli Sərəncamı görkəmli alimin irsinin öyrənilməsinə və təbliğinə geniş şərait yaradıb.

Vurğulanıb ki, Azərbaycan ədəbiyyatşünaslıq tarixində özünəməxsus yeri olan Məmməd Cəfər Cəfərov 1909-cu ildə Naxçıvan şəhərində anadan olub. Ali təhsilini müvəffəqiyyətlə başa vuran gənc alim “Gənc işçi”, “Maarif işçisi” qəzetlərinin redaksiyalarında ədəbi işçi, sonralar isə Azərbaycan Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsinin dekanı, Azərbaycan Dövlət Universitetində Rus ədəbiyyatı kafedrasında dosent, həmçinin “Ədəbiyyat qəzeti”nin şöbə müdiri və digər məsul işlərdə çalışıb. Daha sonra fəaliyyətini Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda davam etdirib.

Akademik Məmməd Cəfər Cəfərovun elmi yaradıcılığına nəzər salan gənc tədqiqatçı şagirdlərin diqqətinə çatdırıb ki, həyatını elmin inkişafına həsr edən alimin Azərbaycan və Avropa klassik ədəbi irsi, dərsliklər, ədəbiyyat tarixləri, ali məktəblər üçün dərs vəsaiti və mühazirə mətnləri bu gün də öz aktuallığını qoruyub saxlayır.

Açıq dərsdə bildirilib ki, ömrünün 60 ilini ədəbiyyatımızın inkişafına həsr edən akademik Məmməd Cəfər Cəfərov elmi fəaliyyətinin 40 illik bir dövrünü AMEA ilə bağlayıb. Bu gün AMEA-da, eyni zamanda Naxçıvan Bölməsində alimin irsi dərindən öyrənilir və təbliğ edilir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Zəfər yürüşü Laçını da əhatə edəcək

*1992-ci ilin may ayının 18-də Laçında – Kiçik Qafqaz dağlarının bu füsunkar təbiətə malik ərazisində açılan güllər ömrünü yaşamamış soldu, erməni vandalizmi və vəhşiliyi 18 uşağın həyatını yarıda qoydu, 31 körpə hər iki valideynini itirib yetim, kimsəsiz qaldı, 300 nəfərdən çox insan şəhidlik zirvəsinə ucaldı, 103 nəfər əbədi əlil arabasına məhkum oldu. O gün əzəli türk yurdu olan Laçını – Qarabağın dağlıq hissəsinə gedən yolun üzərindəki ən strateji ünvanı itirdik. Laçın əldən verilməsəydi, Qarabağın digər bölgələrinin işğalını gerçəkləşdirən ermənilərin bu ərazilərdə qalması mümkünsüz olacaqdı. Çünki Ermənistandan Qarabağa gedən yeganə və əsas nəqliyyat dəhlizi Laçın idi.*

1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal olunduqdan sonra Laçın ətrafında yerləşən yaşayış məntəqələrini də zəbt edən Ermənistan silahlı qüvvələri intensiv olaraq ağır artilleriya silahlarından rayon mərkəzini atəşə tutmağa başladılar. Həmin il mayın 18-də Şuşa şəhərinin Turşsu ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni ordusu Laçını işğal etdi. Rayonu ələ keçirən düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə əraziyə daxil oldu. Həmin dövrdə Laçından və ətraf rayonlardan çıxarılan silahlı qüvvələrin əksəriyyəti Bakıda baş verən siyasi qarşıdurmalara cəlb olunurdu. Yəni paytaxtda mövcud olan silahlı aksiyalara qoşulan ordu cəbhə bölgələrindəki mövqelərimizi nəzarətsiz qoymuşdu. Nəticədə, işğal edilən rayonlarımızın sırasına Laçın da daxil oldu.

İşğala qədər rayonda bir şəhər, bir qəsəbə, 125 kənd mövcud olub, 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri fəaliyyət göstərib. Ermənilər rayonu ələ keçirdikdən sonra 13 min 745 yaşayış evi qarət edilərək yandırılıb, rayon ərazisindəki 54 dünya, 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidə erməni vandalizminə məruz qalıb, ictimai və şəxsi təsərrüfatlarda olan 25 min başdan çox iri və 200 min başdan çox xırdabuynuzlu heyvan qarət olunub. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəyib, 58 min 736 laçınlı öz doğma torpağından didərgin salınaraq məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşıb.

Qədim Azərbaycan yurdu olan Laçında məskunlaşmanın tarixi eramızdan əvvəl II-I minillikdən başlayır. Laçın rayonunun Mirik kəndi ərazisindəki Qaranlıq kaha, Bayqara mağaraları, Hoçaz kəndindəki mağara-məbəd bu qədim tarixin nişanələridir. Maraqlı məqam ondan ibarətdir ki, Qobustan və Gəmiqayadan sonra məhz Laçın ərazisində qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar aşkara çıxarılıb. Bütün bunlar isə, təbii ki, protoazərbaycanlıların qədim mədəni inkişafının müxtəlif bölgələrimizdə meydana çıxan ortaq təzahürləridir.



Laçın ərazisindəki IX əsrə aid Ağoğlan qəsri, XI əsrə aid Dəmrovlu Pir Məbədi, XII əsrin abidəsi olan Malik-Əjdər türbəsi, XV əsrin yadigarı Uşaq qalası, XVII əsrin nişanələrini saxlayan Kar günbəz, orta əsrlərin yadigarları olan birtağlı və ikitağlı körpülər, su dəyirmanları və sair kimi tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir.

Çar Rusiyası dövründən başlayaraq 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuş bu ərazinin ilk adı türk "Abdal" tayfasının adından götürülüb. 1924-cü ilə qədər indiki Laçın rayonu məhz "Abdallar" adlanıb. Bu ad Ağ Hun tayfasının adını əks etdirir. Əsasında Abdal tayfasının adı olan etnotoponimlərə başqırdlarda, qaraqalpaqlarda, qazaxlarda və türkmənlərdə rast gəlinir. Hələ VI əsrdə suriyalı tarixçi Zaxari Ritor Şimali Qafqazda Hun əyalətində yaşayan müxtəlif tayfalar arasında türkdilli Abdal tayfasının da adını çəkib, alban tarixçisi Musa Kalankatlı Albaniyada yaşayan Abdal tayfasının adını qeyd edib. "Abdal" adına ölkəmizin digər əraziləri ilə yanaşı, Ordubad rayonu ərazisində də rast gəlinir.

1924-cü ildən şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzinə çevrilib. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq "Laçın" adlandırılıb. "Laçın" sözü "məğrurluq" mənasını bildirir.

Tarixçilər onu da vurğulayırlar ki, ermənilərin bu ərazidə məskunlaşması 1828-ci il Rusiya-İran müharibəsindən sonraya təsadüf edir. Həmin ildən Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlanılıb. O zaman bu torpaqlara səfil, ac-yalavac gələn ermənilər 1905-1907 və 1918-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində türk-müsəlman əhaliyə qarşı qanlı qırğınlar törədib və nəticədə, təxminən, yarım milyon müsəlman həlak olub.

Hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi zaman ermənilərin Qarabağ ərazilərinə əsassız iddialarını bilən, bu əzəli Azərbaycan torpaqlarının inkişafına və tərəqqisinə çalışan ulu öndər Heydər Əliyev Laçın haqqında 1971-ci ildə dağ rayonlarının iqtisadiyyatını yüksəltmək üçün qərar qəbul edib, qısa zaman kəsiyində Laçının sürətli inkişafına nail olunub. İstər iqtisadi cəhətdən, istərsə də abadlıq-quruculuq sahəsində dağ rayonları sırasında o zaman Laçın birinci yerdə dururdu.

Biz Azərbaycan ərənləri sözümüzə sadiqik. Ağrılı-acılı 27 ilin Laçın həsrətinə son qoymaq üçün Laçına mütləq qayıdacağıq. Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını dəfələrlə bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün bütün vasitələrdən istifadə olunacağını da qətiyyətlə vurğulayır. Ordumuzun Cocuq Mərcanlıdan, Günnütdən başlanan zəfər yürüşü buna bir daha inamımızı artırır. Günnüt zəfərinin dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsi də böyük qələbəni daha da yaxınlaşdırır.

**Arif BAYRAMOV**

Xalq təqvimi

# Göycə, beçə, qızılgül dövrü

***Hər bir xalq fenoloji müşahidələr əsasında təbiətdə baş verən dəyişikliyi izləyir. Qışda başqa yerlərə getmiş köçəri quşların geri qayıtması, yuva qurması, bitkilərin cücərib çiçəklənməsi və bunların az fərqlə hər il eyni vaxtda təkrarlanmasının şahidi oluruq. Məhz bu dəyişikliyə uyğun olaraq təsərrüfat işləri planlaşdırılır.***

Xalq təqvimində adları çəkilən dövrlərə aid terminlər bütün yaşayış məskənləri üçün xarakterik olmur. Məsələn, üzümçülüklə bağlı işlədilən "qora bişirən ay" və ya "qora dəyən ay" üzüm əkilməyən dağ kəndlərində xalq təqvimi kimi işlədilmir. Bu kəndlərdə isə çiçək açan ağac və kollar, onların qızarmağa başlaması xalq təqvimində özünəməxsus mərhələlərlə adlandırılır. Əhalinin əsas məşğuliyyətini təşkil edən əkinçilik və maldarlıq da görüləcək işlərin, məhsulun suvarılması, toplanılması da xalq təqvimi bölgüsündə iştirak edir. Bu baxımdan may ayında təsərrüfat sahələrində görülən işlər xalq təqvimində xüsusi yerə malikdir.

Bəzən əhali ata-babadan uzun illərboyu miras qalan təsərrüfat sahələrində dəyişiklik aparır, yeni fəaliyyət növləri tətbiq edilir. Naxçıvan əhalisinin əsas təsərrüfat fəaliyyətinə yeni daxil olan sahələrdən biri də göycə əkinləridir. Bu mənada, Naxçıvanda may ayında xalq təqviminin müəyyən dövrünü göycə dövrü də adlandıra bilərik. Doğrudur, xalq təqvimində indiyədək belə bir dövr adlandırılmayıb, amma son illər muxtar respublikada göycə əkinlərinə geniş yer verilməsi, göycənin təbliği ilə bağlı görülən işlər, ənənəvi göycə festivallarının keçirilməsi, bazar-dükanlarımızda bu nemətin bolluğu may ayında yeni bir dövrün – göycə dövrünün formalaşmasına zəmin yaradıb.

Naxçıvan ərazisi elədir ki, yaxın məsafələrdə yerləşən aran kəndlərinin belə, iqlim təzadı çoxdur. Naxçıvan şəhəri ilə ondan 2-3 kilometr aralıda yerləşən kənd arasında 12-15 gün iqlim fərqi vardır. Bu isə bazarlarımızda mərhələli şəkildə məhsul bolluğu yaradır. Onu da qeyd edək ki, göycə "Naxçıvan brendi"nə çevrilib və bu məhsul muxtar respublikadan kənarda da xüsusi rəğbətlə qarşılanır. May ayının əvvəllərindən bazarda, əsasən, Naxçıvanın "Çuxur" məhəlləsi adlanan hissəsindən gətirilən göycələr satılır. Ümumiyyətlə, Naxçıvanda Çuxur məhəlləsinin göycəsi adla deyilir. 1960-70-ci illərə qədər Naxçıvan bağlarında göycə, demək olar ki, yox idi. Sadəcə, nisbətən şirin, bir qədər sulu alçalara göycə deyərdik. Əvvəllər göycə ağacları ən çox Babək qəsəbəsi ətrafında əkilsə də, indi hər yerdə bu meyvə tingləri əkilib-becərilir.



Beçə dövrü – arıçılıqda may ayı "beçə ayı", "beçə dövrü", "pətək ayı" kimi də adlanır. Naxçıvanın aran və orta dağlıqda yerləşən yaşayış məntəqələrində may ayından başlayaraq çiçəklər yetişib şirələnməyə, arılar artıq çiçək tozundan (güləm) çox şirə, nektar gətirməyə başlayır. Təcrübəli arıçılar söyləyirlər ki, may ayında arılar alaqaranlıqdan hava istinənə qədər güləm, hava istindikdən sonra isə şirə gətirir. Müşahidələr göstərir ki, bir çox çiçəklər Günəş çıxandan sonra yumulur, bir də axşamçağı açılır. Lalə və başqa çiçəklər səhərüzü açılır, Günəş çıxandan sonra ləçəklərini tökür. Görünür, arı da işini təbiətə uyğun qurur. Şirə gəlməyə başlayandan arı yeni pətək toxumağa başlayır. Çünki dibdəki pətəklərdən anbar kimi istifadə edir, topladığı ruzi pətəkləri doldurduğu üçün bala (qurd) qoymaq məqsədilə yeni pətəklərə ehtiyac olur. Məlumat üçün deyək ki, arı pətək toxumağa başlamamış "beçə" vermər. Ona görə də bəzən arıçılar deyir ki, bu il beçə ili deyil. Hər ailədə bir ədəd olan ana arı pətəyin gözcüklərinə bala (qurd) qoyur. Bu qurdların içərisində iri gözcüklərdən erkək arılar, normal gözcüklərdən isə işçi arılar çıxır. Daha böyük bir neçə göz olur ki, bunlardan da ana arılar çıxır. Təcrübəli arıçılar qoyulan ana gözlərə baxanda bəzən deyirlər ki, "arı ana dəyişir", yəni ailədə olan ana arı ya qocalıb, ya da hansısa səbəbdənsə, az məhsuldardır. Ona görə də yeni ana arı çıxanda köhnə arını öldürürlər.

Yeni çıxan ana arılar özü ilə bir dəstə arı götürərək yeşikdən çıxır, buna "beçə" deyirlər. Bir beçə dəstəsində 4-5 ana arı olur. Sonradan arılar seçib birini saxlayır, qalanını öldürürlər. Yeşikdən çıxan beçə yaxınlıqdakı ağac, kolun üstünə düşür. Bir-iki saat ərzində beçə tutulub yeşiyə, səbətə salınmazsa, uçub hara gəldi gedəcək. Bəzən elə olur ki, beçə yaxınlıqda olan, hətta kənarda digər arıçıların qoyduğu boş yeşiyə girib məskən salır. Arı ailəsindən beçənin çıxması arı ailəsini zəiflədir. Vaxtilə arılar səbətdə saxlanılmadığı üçün arı ailəsinə nəzarət etmək olmurdu. İndi isə arı ailəsi yeşiklərdə olduğu üçün nəzarət asandır. Bəzi arıçılar beçənin çıxmasını, arı ailəsinin nəzarətdə saxlayır, qoyulan ana gözləri doğrayıb tökürlər. Bu cür xidmət çox zəhmət tələb edir.

Bəzən arı ailəsində olan ana gözlər fərqli böyüdüyünə görə, bir və ya bir neçə gün ərzində eyni ailədən bir neçə kiçik dəstələrlə beçə ayrılır. Belə dəstələrə arıçılar "milçək" də deyirlər. Beçə tutulub ayrı yeşiyə yerləşdirilir. Yeşiyə bir neçə ramka və mümkünsə, bir ədəd bal olan ramka qoyulur. Ballı ramka olmadıqda beçəyə bir neçə gün şirə (şərbət) verilir ki, özünü toplasın. Bəzi arıçılar beçənin çıxmasını, arı ailəsinin zəif düşməsini istəmədikdə beçə dəstəsini ağ parçanın üstünə çırpır, ana arıları seçib öldürürlər. Bu zaman beçədə olan arılar ayrılıb çıxdığı ailəyə qayıdır.Yağıntılı illərdə gül-çiçək çox olduğu üçün arı üç dəfə beçə verə bilir. Onlar sırası ilə "şahbeçə", "ortabeçə" və "xorabeçə" adlanır. Yalnız arı ailəsinin sayını artırmaq istəyən arıçı bir neçə dəfə beçə çıxarmasını arzulayır.

May ayının əvvəllərindən üzüm bağlarındakı tənəklərin diblərini belləməyə başlayırlar. Bu zaman həm də üzüm tənəklərinin yarpaqlarının yığılma vaxtıdır. Bağdan yalnız öz ehtiyacı üçün yarpaq toplayan ailələr belləməni bir qədər ləngidir ki, sonradan bağ yarpaq dərərkən ayaqlanmasın. Yarpağı satış məqsədi üçün toplayan ailələr yarpaqlar qalınlaşana, uc yarpaqlar isə inkişafdan düşənə qədər onları toplayırlar. Təbii ki, üzüm yarpağından bişirilən dolma əvəzsizdir. Ona görə də yarpaqlar təzə halda yeyildiyi kimi, şorabaya qoyulur, quru halda duzlanır, soyuducunun dondurmasına qoyulub qışa saxlanılır.

May ayının 15-dən sonra qızılgüllər açılmağa başlayır. Naxçıvan bağlarında qızılgül daim yetişdirilib. Qızılgüldən alınan gülab, gül mürəbbəsi, gülqənd, gülməşəkər hər bir ailədə hazırlanıb qış azuqəsinə çevrilmişdir. Bu gün qızılgülün satışından gəlir götürən yaxşı ailə təsərrüfatı formalaşıb. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması ilə əlaqədar təsdiq edilmiş Tədbirlər Planında ailə təsərrüfatlarında qızılgül mürəbbəsi və gülab istehsalının artırılmasına nail olmaq üçün bu bitkinin əkin sahəsinin genişləndirilməsi də nəzərdə tutulub. Bu şəraitdən yararlanan ailə təsərrüfatları sahibləri qızılgül istehsalına geniş yer verməklə daha çox gəlir götürmək imkanına malikdirlər. Qızılgül əkinlərinə geniş yer verilməsi həm də xalqımıza məxsus olan qədim əkinçilik ənənələrinin yaşadılması deməkdir.

*May ayında dağlarımızda bitən və qış şorabasının əsasını təşkil edən, daim yüksək qiymətləndirilən bolu, çaşır, baldırğan, sobu, çöl kəvəri, cacıq özəyi toplanır. Zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları olan qədim Naxçıvan torpağı may ayında bar-bəhrələrini üzə çıxarır. Naxçıvan nemətlərinin əksəriyyətini qurudub qış fəslinə saxlayaraq onun satışını təşkil edənlər isə daha çox fayda görür.*

**Zaleh NOVRUZOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 346